Fəlsəfə və Sosiologiya

UOT 1.008
https://doi.org/10.30546/3006-0346.2025.3.87.638

**RABİL MEHTİYEV**
*Bakı Mühəndislik Universiteti, dosent*
*E-mail: ramehdiyev@beu.edu.az*

# HEYDƏR ƏLİYEV FONDU VƏ MƏNƏVİ-ESTETİK DƏYƏRLƏRİN TRANSFORMASİYASI

Heydər Əliyev Fondunun fəaliyyətində bir sıra istiqamətlər vardır ki, bunlardan da biri azərbaycançılıq ideologiyası kontekstində mənəvi-estetik dəyərlərin humanizm fəlsəfəsinə əsaslanmaqla təbliğidir. Bu baxımdan Fondun təşviqçilik funksiyası mənəvi-estetik hisslərin insana sevgi, vətənə məhəbbət paradiqmasına hesablanmaqla nəcib missiya daşıyır. Xüsusilə gənc və yeniyetmələrdə Azərbaycan ilə assosiasiya oluna biləcək mədəni elementlərin təbliği kütləvi şüurda vətənə məhəbbət hissini gücləndirmişdir. Belə ki, ilk növbədə bir fakta diqqət çəkilməlidir ki, ülvilik, comərdlik kimi xüsusiyyətlərin təbliğində əyaniliyin təmin olunması Fondun üstünlük verdiyi amildir.

Buna görə də, maddi mədəniyyət nümunələrinin bərpası və himayə olunması yalnız onların gələcək nəsillərə çatdırılması üçün deyil, indiki nəslin mənəvi tərbiyəsində də vacib rol daşıyır. Estetik dünyagörüşü görmək ilə başlayır. Tanınmış alim Xudu Məmmədov demişdir ki, siz gənclərə vətəni sevməyi öyrətməyin, vətəni göstərin onlar özləri sevəcəklər. Bu fəlsəfədən baxdıqda Azərbaycanın maddi-mənəvi abidələrinin təbliği və təşviqində Fondun misilsiz missiyası bariz görünür.

Fondun Azərbaycanın müxtəlif bölgələrində həyata keçirdiyi layihələr milli irsin qorunması ilə bahəm, həm də onun gənc nəsilə aşılanması nöqteyi-nəzərindən prinsipialdır. O cümlədən, "Qarabağ xanəndələri" adlı musiqi albomunun, Parisdə ingilis dilində “Azərbaycana qarşı müharibə: mədəni irsin hədəfə alınması”, “Muğam haqqında əlyazmalar toplusu” və bu qəbildən olan digər nəşrlər estetik mədəniyyətimizin təbliğində misilsiz rol oynamışdır.

Fondun təşəbbüsü ilə işğaldan azad edilmiş ərazilərdə dini-mədəni abidələrimizin təmiri və bərpa edilməsi, məsələn, Şuşada Yuxarı Gövhərağa, Aşağı Gövhərağa, Ağdam şəhər məscidi, Zəngilan şəhər məscidi Heydər Əliyev Fondu tərəfindən dirçəldilib. 2021-ci il mayın 12-də Heydər Əliyev Fondunun təşkilatçılığı ilə Cıdır düzündə “Xarıbülbül” musiqi festivalı təşkil olundu. Azərbaycan Milli Xalça Muzeyinin Fond tərəfindən Şuşa filialı açılıb.

Heydər Əliyev Fondu təhsil, mədəniyyət, elm, ekologiya və bir çox başqa sahələrdə həm ölkə daxilində, həm də beynəlxalq müstəvidə tarixi nəticələr əldə etmişdir. Başqa bir fikrə görə, cəmiyyətdə fəal maarifçilik xətti yeritməklə klassiklərin mütərəqqi ənənələrini davam etdirən Heydər Əliyev Fondunun fəaliyyəti elmə və təhsilə qayğı nümunələri ilə zəngindir. Bu da təsadüfi deyildir - müasir dövrdə elmi-intellektual potensial hər bir xalqın mütərəqqi inkişafının vacib şərti kimi çıxış edir (7).

Müasir dövrdə estetik zövqün formalaşmasında yalnız passiv amillər (məsələn abidələr, incəsənət əsərləri) deyil, strukturlaşmış təşkilatlar öz əməli fəaliyyəti ilə mütərəqqi rol oynayır. Bu baxımdan Heydər Əliyev Fondunun fəaliyyəti xüsusi qeyd olunmalıdır. İş istiqaməti çoxprofilli olan bu qeyri-hökumət təşkilatı Azərbaycanın sosio-mədəni həyatında dominant rol oynayır.

İlk növbədə Fondun fəaliyyətinin əsasən iki istiqamətdə olduğu qeyd olunmalıdır. Birinciyə, milli mədəniyyətin təşviqi və mühafizəsi. İkinci istiqamətə ölkəmizdən kənarda maddi-mənəvi mədəniyyət nümunələrinin qorunması və bərpası. Biri digərini tamamlayan bu iki istiqamət Azərbaycanın milli mədəniyyətinin himayə olunması ilə yanaşı, ölkəmizin beynəlxalq imicinin möhkəmlənməsində də vacib diplomatik bir missiyadır.

Fondun fəaliyyətini qlobal əhəmiyyətini əks etdirən fikirlərə görə: Heydər Əliyev Fondu xalqın milli varlığını özündə yaşadan maddi-mənəvi və intellektual irsə diqqət və qayğı ilə yanaşır, milli mədəniyyətimizin dünya arenasına çıxmasına və təbliğinə ciddi dəstək verir. Heydər Əliyev Fondunun prezidenti Mehriban xanım Əliyevanın təşəbbüsü ilə həyata keçirilən çoxşaxəli layihələri birləşdirən ümumi ortaq xətt isə məhz milli genefondun qorunması, saf dəyər və duyğuların ictimai şüurda intişar tapmasıdır (3).

Fondun xaricdəki fəaliyyəti Azərbaycanın multikultural dəyərlərə rəğbətlə yanaşmasını nümayiş etdirməklə ölkəmizin beynəlxalq imicinin yüksəlməsində vacib rol oynayır.

Son illər Azərbaycanda gerçəkləşdirilən bir çox böyük miqyaslı tədbirləri məhz Heydər Əliyev Fondunun BMT, YUNESKO, İSESCO, İslam Əmək-

daşlıq Təşkilatı, QHT "Vital Voice" və digər mötəbər qurumlarla sıx və ardıcıl əməkdaşlığı sayəsində həyata keçirmək mümkün olub (5).

Bu diplomatiya xüsusən erməni lobbisinin anti-Azərbaycan fəaliyyətinin ifşa edilmsədində tam bir ideoloji xətt yaradıb. Avropa və dünya ictimaiyyəti xoşməramlı ölkə kimi Azərbaycana daha çox dəyər verir.

Heydər Əliyev Fondunun ən böyük missiyası Azərbaycan mədəniyyətinə sahib çıxaraq onun təbliğidir. Fondun missiyasının mənəvi- estetik hisslərin transformasiyasındakı əhəmiyyətini səciyyələndirən Mehriban xanım Əliyevanın söylədiyi kimi, başqalarına yaxşılıq ömrü boyu onun üçün ümdə anlayışlara, ülvi insani keyfiyyətlərə çevrilmiş, eyni zamanda bu xeyirxahlıq missiyasının kökündə təmənnasızlıq prinsipi dayanmışdır (8, s.6).

Bir sıra hallarda əlaqədar dövlət strukturları ilə əməkdaşlıq şəraitində müxtəlif layihələrin reallaşdırılması görülən işlərin miqyasını artırmaqla daha böyük əhatə dairəsi yaradır. Əlaqələndirmə missiyasını üzərinə götürən Fondun diqqət dairəsindən kənarda qalan heç bir mədəniyyət hadisəsi və ya prosesi yoxdur. Bu da vahid idarəetmə mexanizmi kimi keyfiyyətin təmininə, islahatların daimiliyinə zəmin yaradır.

"Heydər Əliyev Fondu həyata keçirdiyi qlobal layihələrlə insan və vətəndaş hüquq və azadlıqlarının etibarlı müdafiəçisi statusunda çıxış edir, respublikamızın hərtərəfli inkişafına və vətəndaş cəmiyyəti quruculuğu prosesinin sürətləndirilməsinə öz töhfəsini verir, eləcə də vətəndaşların problemlərinin həllinə səy göstərir, imkanlarını bu istiqamətdə səfərbər edir". (2).

Muğam klassikadır, fəlsəfədir, mentalitetdir, çağırışdır, təsəllidir. Bu siyahı daha da genişdir. Amma əhəmiyyətli olan muğama ümumxalq rəğbətidir. Muğam indiki mərhələdə həm də bir təbliğat markasıdır. Heydər Əliyev Fondunun dəstəyi ilə muğamın bir xalq sənəti kimi dirçəldilməsi təmin olundu və beynəlxalq müstəvidə ölkəmizin mədəniyyətinin unikallığını göstərən faktorlardan birinə çevrildi. BMT-nin mədəniyyət təşkilatı olan YUNESKO muğamı bəşəriyyətin qeyri-maddi irs siyahısına daxil etdi. Muğam estetik baxımdan musiqi zövqü ilə yanaşı, həm də münasibət hissi yaradır. Belə ki, muğama millilik, tarixi ənənələrə söykənmə, mentalitetdən irəli gələn estetik məziyyətlər xasdır.

"Azərbaycanın maddi və mənəvi abidələrinin UNESCO-da pasportlaşması, tanıdılması, xalqımızın yaratdığı irsin dünyada təbliğ olunmasında Heydər Əliyev Fondunun fəaliyyəti əvəzsizdir. Heydər Əliyev Fondu Ulu Öndər Heydər Əliyevin adına layiq olaraq humanist dəyərləri təbliğ edən mühüm bir təşkilat kimi tanınıb. Heydər Əliyev Fondu Ulu Öndərin yaratdığı milli irsimizin ən yaxşı təbliğatçısına çevrilib (1).

Digər fikrə görə, Heydər Əliyev Fondunun qarşıya qoyduğu və reallaşdırmaq üçün fəaliyyət göstərdiyi məqsədlərin dairəsi kifayət qədər genişdir. Belə ki, Azərbaycanın tərəqqisi və xalqımızın rifahı naminə Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyevin zəngin irsindən bəhrələnmək, bu işə xidmət edən genişmiqyaslı proqram və layihələrin reallaşmasına dəstək olmaq, səhiyyə və tibbi təsisatları inkişaf etdirmək fondun fəaliyyətinin qayəsidir (6).

Qeyd olunanların yekunu olaraq qeyd etmək olar ki, Heydər Əliyev Fondu ölkəmizin milli-mənəvi irsinin təbliği və mühafizəsində, estetik dünyagörüşünün zənginləşməsində mühüm rol oynayır. Bu da insanlararası münasibətlərin, nəcibləşməsinə, daha humanist olmasına rəvac verir. İnsanların kəmiyyətcə artdığı indiki mərhələdə əhali sıxlığı fonunda birgəyaşayış qaydalarında balansın saxlanması bu kimi amillər ilə determinasiya olunur.

Fondun Ulu Öndər Heydər Əliyev irsinin gələcək nəsillərə çatdırılmasındakı futuristik funksiyası haqda: Heydər Əliyev ideyalarının həmişəyaşar olmasını təmin edən ən mühüm hadisələr sırasında onun nəzəri-ideoloji irsinin öyrənilməsi, ideyalarının tədqiqi və təbliği ilə bağlı ictimai təşkilatların və elmi-tədqiqat müəssisələrinin fəaliyyəti, Heydər Əliyev Fondunun beynəlxalq miqyasda həyata keçirdiyi tədbirlər, bu məqsədə xidmət edən araşdırma və tədris mərkəzləri, universitetlər, akademiyalar və s. xüsusi yer tutur (4). Əlavə edək ki, bu missiya Azərbaycanın müasir reallığında həm də tarixi səciyyə daşıyır.

Beləliklə, Heydər Əliyev Fondunun müasir mərhələdəki missiyasını ümumiləşdirərək qeyd etmək olar ki, Fond keçmiş, indi və gələcək dialektikasında zərurətdən yaranan təşkilat kimi fəaliyyətini Ulu Öndərin irsinə layiqli formada qurmuşdur. Bu fəaliyyət, politoloji, fəlsəfi, kulturoloji, estetik və digər dəyərlərə istinad etməklə azərbaycançılıq ideologiyasını müqəddəs tutur.

## ƏDƏBİYYAT SİYAHISI:

*1. Babaoğlu H.Heydər Əliyev Fondu Ulu Öndərin yaratdığı milli irsimizin ən yaxşı təbliğatçısına çevrilib https://sia.az/az/news/politics/1154939.html.*

*2. Əliyev Ə. Heydər Əliyev Fondu beynəlxalq*

*əlaqələrini genişləndirir https://mehribanaliyeva.preslib.az/media-047cec75eb.html*

*3. Əliyeva N. Milli-mənəvi dəyərlərə qəbən bağlı lider. https://dq.mia.gov.az/upload/2.pdf*

*4. Xəlilov S Heydər Əliyev irsi, ideya varisliyi və davamlı inkişaf. "Xalq qəzeti".-2011.-8 may.-N 99.-S.7.*

*5. Mehdiyeva Ü. Heydər Əliyev Fondu və ictimai diplomatiya. https://mehribanaliyeva.preslib.az/media-tlfz9aCr1V.html*

*6. Məlikli G. Ulu Öndər Heydər Əliyevin fəaliyyətinin tükənməz xəzinəsi - Heydər Əliyev Fondu 20 il.https://science.gov.az/az/news/open/28990.*

*7. Məmmədov Vüqar. Heydər Əliyev Fondu Azərbaycanın sosiomədəni inkişafına töhfələrini verir. Azərbaycan.- 2012.- 12 iyun.- № 128.- S. 3.*

*8. Ulu öndər. 5 cilddə. V cild. Bakı. "Şərq-Qərb" Nəşriyyat evi. 2013. 224 səh.*

**Xülasə**

Heydər Əliyev Fondunun fəaliyyətində diqqət çəkən məqamlardan biri estetiklik, insanın şəxsiyyətinin zənginləşməsində və tamamlanmasında ülvilik hissi aşılamaqdır. İnsanlararası münasibətlərdə nəciblik hissinin təşəkkülü daim dövrün şərtlərindən, sosio-mədəni mühitin səviyyəsindən asılı olur. Bu konteksdə Fond yeniləşən Azərbaycanda mənəvi olanın maddidən üstünlüyünü mənəvi kredoya çevirən fəaliyyət fəlsəfəsinə əsaslanmaqla ölkənin simvollarından biri kimi qəbul edilməkdədir.

Müasir qlobal çağırışlara adekvat siyasət formalaşdırmaq Fondun xaricdəki missiyasında da aydın görünür. Dünyanın müxtəlif hissələrində, fərqli mədəniyyət daşıyıcıları ilə qurulan ünsiyyət bir sıra hallarda unikal xarakter daşıyır və mütərəqqi haldır ki, Fondun Avropa və Asiya qitələrində ali səviyyədə qəbul olunması ölkəmizin beynəlxalq tərəfdaşlıq imkanlarını dəfələrlə artırmışdır.

**Açar sözlər:** *Heydər Əliyev Fondu, sosio-mədəni həyat, estetik dəyərlər, milli irs, mədəniyyətlərarası dialoq.*

## HEYDAR ALIYEV FOUNDATION AND THE TRANSFORMATION OF MORAL AND AESTHETIC VALUES

**Summary**

One of the notable aspects of the Heydar Aliyev Foundation's activity is its endeavour to instill the sense of the sublime, aesthetic, which contributes to the enrichment and improvement of human personality. Formation of the sense of nobility in relations between people always depends on the conditions of the epoch and the level of socio-cultural environment. In this context, the Foundation is perceived as one of the symbols of the country based on the philosophy of activity, which is based on the priority of spiritual over material in the renewing Azerbaijan.

Formation of adequate policy in response to modern global challenges is clearly seen in the international mission of the Foundation. Establishing contacts with representatives of different cultures in different parts of the world is unique in some cases, and it is progressive that the high recognition of the Foundation in the countries of Europe and Asia has expanded the international partnership opportunities of our country many times.

**Keywords:** *Heydar Aliyev Foundation, socio-cultural life, aesthetic values, national heritage, intercultural dialogue.*

## ФОНД ГЕЙДАРА АЛИЕВА И ТРАНСФОРМАЦИЯ МОРАЛЬНЫХ И ЭСТЕТИЧЕСКИХ ЦЕННОСТЕЙ

**Резюме**

Одним из примечательных аспектов деятельности Фонда Гейдара Алиева является стремление привить чувство возвышенного, эстетического, которое способствует обогащению и совершенствованию человеческой личности. Формирование чувства благородства во взаимоотношениях между людьми всегда зависит от условий эпохи и уровня социокультурной среды. В этом контексте Фонд, опираясь на философию деятельности, в основе которой лежит приоритет духовного над материальным в обновляющемся Азербайджане, воспринимается как один из символов страны.

Формирование адекватной политики в ответ на современные глобальные вызовы чётко прослеживается и в международной миссии Фонда. Установление контактов с представителями различных культур в разных частях мира в ряде случаев носит уникальный характер, и прогрессивным является тот факт, что высокое признание Фонда в странах Европы и Азии многократно расширило международные партнёрские возможности нашей страны.

**Ключевые слова:** *Фонд Гейдара Алиева, социокультурная жизнь, эстетические ценности, национальное наследие, межкультурный диалог.*